**“Maarifpərvərlik”**
**Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi**

**“Education”**
**Public Support Association of Youth of Azerbaijan (EPSAYA) public union**

**Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 42 00, Heydər Əliyev prospekti 3,**
**İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42**

# NƏQLİ HESABAT – 2017

## Təsisat tarixi

***“Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi*** 31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökümət təşkilatıdır.

İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Birliyin fəaliyyət dairəsi Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## Məqsəd və vəzifələr

İctimai birliyin məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarətdir.

Birliyin vəzifələri onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

## Təşkilati struktur

- Ümumi Yığıncaq (Ali İdaeəetmə Orqanı);
- İdarə Heyyəti (İcra Orqanı);
- Prezident;
- Vitse-prezident;
- Nəzarət Təftiş Komissiyası;
- İcraçı direktor;
- Direktorlar Şurası.

## Həmtəsisçilər və üzvlük

MAGİYA ictimai birliyinin 2 həmtəsisçisi, 9 üzvü və 24 nəfər könüllüsü vardır. İctimai birliyin nümayəndələri həm respublika daxilində, həm də respublikadan kənarda (Gürcüstan, Belçika, Almaniya və s.) müxtəlif əməkdaşlıq layihələrini böyük uğurla həyata keçirir. İctimai birliyin nümayəndələri Gürcüstan, Ukrayna, Belçika, Avstriya, Böyük Britaniya, ABŞ, Belorusiya, Litva, Türkiyə, Qazaxıstan,

Almaniyada keçirilən müxtəlif proqramlarda çox fəal iştirak etmiş və ictimai birliyi həmin ölkələrdə layiqincə təmsil etmişlər.

İctimai birliyə üzvlük pulsuz və könüllüdür. Hər bir 18-35 yaşarası ziyalı gənc ictimai birliyə üzv ola bilər. Bundan ötrü ictimai birliyə müvafiq ərizə ilə müraciət etmək lazımdır.

***MAGİYA ictimai birliyinin həmtəsisçiləri və üzvləri***

| *№* | *Adı və soyadı* | *Vəzifəsi* | *Statusu* |
|---|---|---|---|
| 1 | A.Ə.Məlikov | Prezident | Həmtəsisçi |
| 2 | Z.Z.Babayev | NTK-nın sədri | Həmtəsisçi |
| 3 | E.K.Fəttayev | Vitse-prezident | Üzv |
| 4 | R.K.Abbaszadə | Vitse-prezidentin assistenti | Üzv |
| 5 | S.V.Babayev | İcraçı direktor | Üzv |
| 6 | A.F.Əhmədli | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | Üzv |
| 7 | A.E.Bayramova | İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 8 | Ü.G.Muradova | KİV-lə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 9 | E.Y.Fətullazadə | İnsan resursları şöbəsinin müdiri | Üzv |
| 10 | İ.F.Muradov | Layihələr və tədbirlər şöbəsinin müdiri | Üzv |
| 11 | M.T.Əliyev | Mühasibatlıq və audit şöbəsinin müdiri | Üzv |

**Qazandığı mükafatlar**

| *№* | *Məzmun* | *Titul* | *Tarix və yer* | *Təşkilat* |
|---|---|---|---|---|
| 1 | "Yerlərdə Dövlət Gənclər Siyasətini uğurla həyata keçirdiyinə görə" | Fəxri Fərman | 02 fevral 2007-ci il, Lənkəran | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| 2 | "Rayonun ictimai-siyasi həyatındakı fəallığına görə" | Fəxri Fərman | 29 dekabr 2010-cu il, Lənkəran | Lənkəran şəhər İcra Hakimiyyəti |
| 3 | "2011-ci il ərzində göstərdiyi uğurlu fəaliyyətə görə" | Fəxri Diplom | 1 fevral 2012-ci il, Bakı | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| 4 | "Azərbaycan Könüllülük Xidməti" üzrə Milli Akkreditasiya Sertifikatı | Şəhadətnamə | 05 dekabr 2013-cü il, Bakı | Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası |

**Təsis etdiyi mükafatlar**

MAGİYA ictimai birliyi ***"Gənclərin inkişafı sahəsində göstərdiyi dəstəyə görə"*** 27 may 2012-ci il tarixində ***"Gənclərin Dostu"*** adlı ***Fəxri Diplom*** təsis etmişdir.

**Üzv olduğu qurumlar**

- “Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası”, 2005-ci il;
- “Uşaq hüquqları üzrə QHT Alyansı”, 2006-cı il;
- “İnsan Alverinə qarşı QHT Koalisiyası”, 2009-cu il.

**Donorlar və Tərəfdaşlar**

- Avropa İttifaqı;
- Statoil Şirkəti;
- Uşaqların Xilası Təşkilatı;
- Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi;
- Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutu;
- Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu;
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi;
- Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası;
- Beynəlxalq Miqrasiya Təşkilatı;
- Birləşmiş Millətlər Təşkilatının Demokratiya Fondu;
- Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi;
- Almaniya Federal Xarici İşlər Nazirliyi;
- Avrasiya Əməkdaşlıq Fondu;
- Niderland Xarici İşlər Nazirliyi.

**Layihələr**

| № | Layihə | Təfsilatı |
|---|---|---|
| 1 | ***Adı*** | ***“Haqlarımızı bilək, hüquqlarımızı qoruyaq”*** |
| | ***Məqsədi*** | İnsan haqları barədə təsəvvürləri yüksəltmək üçün televiziyada ictimai müzakirələr vasitəsi ilə ictimaiyyətin hüquqi bilik və təcrübəsini genişləndirmək, onların bu sahədə məlumatlılığını artırmaq, bütövlükdə əhalinin hüquqi maarifləndirilməsinə və məlumatlandırılmasına dəstək vermək |
| | ***Məbləği*** | 9 999 manat |
| | ***Tarixi*** | 08 oktyabr 2014-cü il – 30 aprel 2017-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | “Cənub arb” Televiziya Şirkəti |
| | ***Donorlar*** | Avrasiya Əməkdaşlıq Fondu və Niderland Xarici İşlər Nazirliyi |

| № | Layihə | Təfsilatı |
|---|---|---|
| 2 | ***Adı*** | ***"Erkən nikahın iştirakçıları potensial insan alveri qurbanlarıdır"*** |
| | ***Məqsədi*** | Gəncləri, xüsusilə də, gənc qızları erkən nikahlar və insan alveri mövzusunda maarifləndirilmək və məlumatlandırılmaq |
| | ***Məbləği*** | 4 661 manat |
| | ***Tarixi*** | 01 aprel – 01 iyun 2017-ci il |
| | ***Yeri*** | Masallı, Astara və Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Masallı, Astara və Lənkəran şəhər Gənclər və İdman İdarələri |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 3 | ***Adı*** | ***"Məişət zorakılığına qarşı mübarizədə gənclərin səfərbər edilməsi"*** |
| | ***Məqsədi*** | Məişət zorakılığı və onun formaları ilə mübarizə sahəsində gəncləri maarifləndirmək və məlumatlandırmaq |
| | ***Məbləği*** | 6 000 manat |
| | ***Tarixi*** | 05 oktyabr 2017-ci il – 05 yanvar 2018-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu |

**Nəşrlər**

***"Erkən nikahın iştirakçıları potensial insan alveri qurbanlarıdır"*** layihəsi çərçivəsində bukletlər.



İnsan alverinin qurbanına çevrilməmək üçün:

- *Pasportunuzu heç kəsə etibar etməyin!*
- *Sərhədi qanunsuz yollarla – saxta viza və ya pasportla keçməyə cəhd etməyin!*
- *Xarici ölkəyə daxil olarkən Azərbaycan Respublikasının oradakı səfirliyində və ya konsulluğunda qeydiyyatdan keçin!*
- *Xarici ölkədə sənədləriniz itərsə Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyinə və ya konsulluğuna, yaxud da ölkənin hüquq mühafizə orqanlarına dərhal müraciət edin!*



Buklet Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən maliyyələşdirilən layihə çərçivəsində nəşr edilmişdir.

Bukletdəki məlumatlar müəllifə aiddir və heç bir halda Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin mövqeyini əks etdirmir.



LƏNKƏRAN 2017

***Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) İctimai Birliyi***

**"Maarifçilik amalımızdır!"**

*Əlaqə məlumatları:*
**Ünvan**: AZ 4200, Lənkəran şəhəri, Heydər Əliyev prospekti 3
**İnternet səhifəsi**: www.epsaya.az
**E-mail**: info@epsaya.az
**Mobil**: (+ 994 51) 814 44 42

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi

MAGİYA • ПАСПАМ • EPSAYA

"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi

"Erkən nikahın iştirakçıları potensial insan alveri qurbanlarıdır" *layihəsi*




*Erkən nikahın iştirakçıları potensial insan alveri qurbanlarıdır!*

**Erkən nikahlar və insan alverinə dair milli qanunvericilik barədə**

Azərbaycan Respublikasının Mülki, Ailə və Cinayət məcəllələrində ölkədə qızlar və oğlanlar üçün **nikah yaşı** 18 yaş müəyyən edilib. CM-nin 176-1-ci maddəsində qadını nikaha daxil olmağa məcbur etməyə görə 2 min manatdan 3 min manatadək cərimə və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası, eyni əməllər **nikah yaşına çatmayan** şəxs barəsində törədildikdə isə 3 min manatdan 4 min manatadək miqdarda cərimə və ya 4 ilədək müddətdə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

"**İnsan alverinə qarşı mübarizə haqqında**" Azərbaycan Respublikasının qanunu Azərbaycan Respublikasının prezidentinin 28 iyun 2005-ci il tarixli, 958 nömrəli fərmanı ilə təsdiq olunmuşdur. 7 fəsil və 30 maddədən ibarət olan qanun respublikada insan alverinin profilaktikasının, insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını, habelə insan alveri qurbanlarının hüquqi vəziyyətini müəyyən edir, insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi məsələlərini tənzimləyir.

*Erkən nikahın iştirakçıları potensial insan alveri qurbanlarıdır!*

**İnsan alveri və miqrasiya barədə**

**İnsan alveri** zor tətbiq etmək hədəsi ilə və ya güc tətbiq etməklə, hədə-qorxu yaxud digər məcburetmə vasitələrilə, oğurlama, aldatma və ya dələduzluq yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud da digər şəxsə nəzarət edən şəxsin razılığını almaq üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə yaxud da almaqla insanların habelə uşaqların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsidir.

*Mütəşəkkil cinayətkarlıq formalarından biri kimi insan alveri öz miqyasına görə narkotik və silah ticarətinə bərabər tutulur və hər il on minlərlə insan onun qurbanına çevrilir!*

İnsan alverinin qurbanına çevrilməyin əsas səbəbləri — məlumatsızlıq, savadsızlıq, yoxsulluq, işsizlik və qanunsuz miqrasiyadır. Miqrantlar insan alveri təhlükəsi qarşısında duran ən yüksək risk qrupunu təşkil edirlər.

**Miqrasiya** beynəlxalq aləm tərəfindən tanınmış dövlət sərhədlərini keçməklə və ya bir dövlətin hüdudlarında bir yerdən başqa yerə getmə *(emiqrasiya)* və ya gəlmə *(immiqrasiya)* prosesi olub, müddətindən və ya səbəbindən asılı olmayaraq insanların istənilən yerdəyişməsini özündə əks etdirir.

*Erkən nikahın iştirakçıları potensial insan alveri qurbanlarıdır!*

**Aidiyyəti terminlər barədə**

**Deportasiya** dövlətin öz suverenliyi çərçivəsində ölkəyə daxil olmağa rədd cavabı aldıqdan və yaxud onun ərazisində qalmaq üçün verilmiş icazə ləğv edildikdən sonra əcnəbinin ölkənin ərazisindən çıxarılması;

**Emiqrant** başqa yerdə məskunlaşmaq məqsədilə öz ölkəsini və ya yaşadığı ölkəni tərk edən şəxs;

**İmmiqrant** daimi və ya qısa müddətə yaşamaq üçün ölkəyə gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs;

**Mütəşəkkil cinayətkarlıq** bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrupun fəaliyyəti;

**Reabilitasiya** zədə, xəstəlik və ya ciddi sosial, psixoloji problemlərdən sonra qurbanın fiziki, mənəvi, peşəkar və sosial vəziyyətinin bərpası və ya saxlanması prosesi;

**Reinteqrasiya** mədəni, sosial və iqtisadi olmaqla insanın təkrar qrupa və ya prosesə qoşulması;

**Risk qrupu** sağlamlığı və iqtisadi göstəricilərinə görə özünə və cəmiyyətin rifahına təhlükə yaradan sosial qrup;

**Mənşə ölkəsi** miqrantların mənbəyi olan ölkə;

**Təyinat ölkəsi** miqrantların yönəldiyi ölkə;

**Tranzit ölkə** miqrantların keçdiyi ölkə.